U

AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMI

№ 77 «25» iyun 2020-ci il

**Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının təmin edilməsi tədbirləri haqqında**

"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2020-ci il tarixli sərəncamının icrasını təmin etmək məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanununa və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

q ə r a r a   a l ı r a m:

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985–2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyul ayının 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə həqiqi hərbi xidmətə çağırışın keçirilməsinə rəhbərlik və nəzarət üzrə yaradılmış Çağırış Komissiyasının tərkibi aşağıdakı kimi təsdiq edilsin:

| | | |
|---|---|---|
| N.Həsənov | – | Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarə rəisi, polkovnik-leytenant, komissiyanın sədri |
| İ.Süleymanov | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, komissiyanın sədr müavini |

CS CamScanner ilə skan edildi

| | | |
|---|---|---|
| C.Şabanov | – | Rayon Polis İdarəsinin İctimai Təhlükəsizlik Şöbəsinin rəisi, polis polkovnik-leytenantı, komissiyanın üzvü |
| N.Tarverdiyev | – | Rayon Gənclər və İdman İdarəsinin rəisi, komissiyanın üzvü |
| İ.Hüseynova | – | Hərbi həkim komissiyasının sədri, terapevt, komissiyanın üzvü |
| Ə.Haqverdiyev | – | Cərrah, komissiyanın üzvü |
| T.Paşayev | – | Nevropatoloq, komissiyanın üzvü |
| K.Əliyeva | – | Dermatoveneroloq, komissiyanın üzvü |
| G.Səmədova | – | Otorinolarinqoloq, komissiyanın üzvü |
| O.Fərəcli | – | Psixiatr, komissiyanın üzvü |
| S.Əliyeva | – | Oftalmoloq, komissiyanın üzvü |
| N.Abbaszadə | – | Stomatoloq, komissiyanın üzvü |
| S.Xanəliyeva | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |
| X.Salahova | – | Çağırış komissiyasının katibi |

3. Rayon Çağırış Komissiyasına tapşırılsın ki, vətəndaşların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırışını "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun olaraq təşkil etsin.

4. Rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinə, MKİS-nin rəislərinə və Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi üzrə qəsəbə nümayəndələrinə tapşırılsın ki, vətəndaşların həqiqi hərbi xidmətə çağırışının keçirilməsi işinin təşkili ilə bağlı SHXÇDX-nin Binəqədi rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər.

5. Hərbi-həkim komissiyasının sədrinə tapşırılsın ki, Rayon Çağırış Komissiyasının müvafiq tibbi texnika, alətlər və digər ləvazimatlarla təchiz edilməsinə, həkim mütəxəssislərin Rayon Çağırış Komissiyasında işə davamiyyətinə və çağırışçıların tibbi şəhadətləndirilməsinin keyfiyyətli keçirilməsinə nəzarəti təmin etsin.

6. Binəqədi Rayon Polis İdarəsinə, İdarənin 4-cü, 5-ci, 6-cı, 7-ci, 40-cı və 43-cü Polis Bölmələrinə tapşırılsın ki, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışını həyata keçirməkdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər, müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin axtarışının həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsində ictimai asayişin təmin olunmasını təşkil etsinlər.

7. Çağırışın gedişatı ilə əlaqədar olaraq Rayon İcra Hakimiyyətinə vaxtaşırı məlumat verməklə, sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsinə nəzarət Səfərbərlik və

CS CamScanner ilə skan edilib

Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi, polkovnik-leytenant Həsənov Nicat Zəfər oğluna tapşırılsın.

8. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Elxan Allahverdiyev
№ 52

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

CamScanner ile tarandı